# Şərqi Zəngəzurda bərpa-quruculuq işləri genişlənir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına növbəti səfərləri, açılış və təməlqoyma mərasimlərində iştirak etmələri, görüşlər keçirmələri bir daha bu yerlərin öz həqiqi sahiblərinin əli ilə tam dirçəldiləcəyinə, rahat infrastruktur yaradılacağına və məcburi köçkün soydaşlarımızın tezliklə doğma yurd-yuvalarına qayıdacaqlarına inamımızı möhkəmləndirmişdir.***

***İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan–Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Xatırladaq ki, bundan əvvəl də dövlətimizin başçısı və xanımı işğaldan qurtarmış ərazilərimizə dəfələrlə səfərlər edib və bütün dünyaya göstəriblər ki, şəhidlərin qanı bahasına geri alınmış torpaqlarımızın hər qarışı ən ali səviyyədə sevgi etirafları ilə daha da şərəflənir. Bu gün Qarabağda – Şuşada, Zəngilanda, Ağdamda genişmiqyaslı bərpa-quruculuq işləri görülür. Eyni zamanda, Kəlbəcər və Laçın kimi ucqar rayonlar da diqqətdədir. Pilot layihələr kimi bu rayonların arıçılıqla və heyvandarlıqla məşğul olan sakinləri dağlar qoynuna gəliblər, şərait yaradılıb ki, onlar öz təsərrüfatlarını yaradıb işə başlasınlar və artıq bu işlərə də start verilib. Yenidənqurmanın coğrafiyası durmadan genişlənir.

...Ömər aşırımından Vətənimizin füsunkar mənzərəsini seyr edən Prezident İlham Əliyev Kəlbəcər yolunun son bir neçə ay ərzində genişləndirildiyini bildirib və qeyd edib ki, bu yol, demək olar ki, keçilməz idi. İndi tunellər çəkilir. Bundan sonra gediş-gəliş çox rahat olacaq. Ölkə rəhbəri bu aşırımın zirvəsində dayanaraq, bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyini dilə gətirib və reallaşdırıb. Beləcə, günbəgün ümid inama, inam qətiyyətə çevrilir. Qətiyyət isə daha böyük qələbələrə müjdəçi olacaq.

Dövlətimizin başçısı öncə Toğanalı–Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq 11,6 kilometrlik tunelin təməlini qoyub. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən, avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək – 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq, Murovdağ silsiləsinin altından tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Prezident İlham Əliyev sonra qürur və inamla üstündə durduğu, ermənilər tərəfindən çəkilmiş Basarkeçər–Kəlbəcər yolundan bəhs edərək bildirib ki, bu, Ermənistanı Qarabağla birləşdirən ikinci yol idi. Nankor qonşular hələ buradan Cəbrayıla gedən üçüncü bir yol da çəkmək istəyirdilər ki, qanunsuz məskunlaşma siyasəti aparsınlar. Bu isə hərbi cinayət sayılır. Əfsuslar olsun ki, beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu və həmsədrlər buna laqeyd yanaşmış, Ermənistana heç bir irad tutmamış, düşməni bu işlərdən çəkindirməyə cəhd etməmişlər. Onlar hətta bu yolda da olmuş və Cəbrayıl rayonunda nəzərdə tutulan yolun inşasına da etiraz bildirməmişdilər. Azərbaycanın etirazına isə məhəl qoyulmurdu. “Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq”.

Ermənilər 30 il ərzində bizim torpaqlarımızı yalnız istismar edib, təbii sərvətləri talayıb, evləri dağıdıb, söküblər. Utanmadan da deyirdilər ki, bura erməni torpağıdır. Amma yalan ayaq tutsa da, yeriməyib. Buralar heç vaxt erməni torpağı olmayıb və bundan sonra olmayacaq. Azərbaycan torpağı murdar götürməz. Biz azərbaycanlılar – bu torpaqların sahibləri ulu yurd yerlərimizə qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, onun ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Ölkə rəhbəri və xanımı səfər zamanı Kəlbəcər kiçik su elektrik yarımstansiyasında görülən işlərlə tanış olublar. Hazırda Lev çayı üzərində 4,4 MVt gücündə olan “Kəlbəcər–1” kiçik su elektrik stansiyası tamamilə yenidən qurulur. Stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə diametri 1,8 metr olan metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan “Kəlbəcər–1” kiçik su elektrik stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır. Lev çayının uzunluğu o qədər də böyük deyil – təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və indən belə elektrik enerjisi istehsalına xidmət edəcək.

Həmin gün Prezident və xanımının 110/35/10 kilovoltluq “Kəlbəcər” yarımstansiyasının açılışını etmələri ilə də yaddaqalan olub. Göründüyü kimi, dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bu məqsədlə Qarabağın bütün yaşayış məntəqələrində, həmçinin Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib. Sözügedən yarımstansiyanın qısa müddətə inşası bu layihələrdən biridir. Kəlbəcərin Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada zəruri modern paylayıcı qurğular yaradılıb, məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sistemi qurulub və ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib. Onu da deyək ki, ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb. Yarımstansiya işə düşəndən sonra bütün Kəlbəcər və ətrafı nur selinə bələnəcək.

Əlbəttə, çox əlamətdar hadisələrdir. Cənab İlham Əliyev Lev çayının kənarında çay süfrəsi arxasında bu barədə fikirlərini iftixarla ifadə eləyib: “Biz artıq Güləbird su elektrik stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovşan su elektrik stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur “yaşıl enerji” zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir”.

Prezident İlham Əliyevin sərəncamına əsasən, tikilən Kəlbəcər–Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun çəkiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq. Səfər çərçivəsində dövlət başçısı bu yolun üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoyub.

Xatırladaq ki, azad edilmiş torpaqların investisiya proqramı tutulanda cənab İlham Əliyevin göstərişi ilə tunellər layihələrə salınmışdır. Hazırda burada, o cümlədən Şuşaya gedən yolda tunellər çəkilməkdədir. Tunel tikintisi xüsusilə çətin işdir, həm də çox böyük xərc tələb edir. Ancaq bu, bölgənin, Şərqi Zəngəzurun inkişafı üçün vacibdir. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar.

Baxın, kommunikasiyaların bərpası, yenilərinin yaradılması quruculuq prosesində necə prioritet sayılır. Laçın rayonunda aeroportun tikintisinə start verilib. Kəlbəcər–Göygöl–Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Qorçu kəndinin ərazisində aeroportun tikilməsi, ümumilikdə, bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək və turizm potensialının artırılmasına səbəb olacaq. Daha əvvəl Füzulidə və Zəngilanda bu işlərə start verilib.

Xocalı aeroportu sayılmasa, sovet dövründə heç vaxt bu bölgədə hava limanı olmayıb. Füzuli Beynəlxalq Hava Limanı tezliklə istismara tam hazır olacaq. Bütün bu layihələr həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Laçın Beynəlxalq Hava Limanının təməlini qoyublar. Dövlət başçısı bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını, laçınlıları, kəlbəcərliləri, bütün keçmiş köçkünləri təbrik edib.

Daha sonra Prezident İlham Əliyev Kəlbəcər şəhərində dövlət bayrağını ucaldıb və burada çıxış edib. Qarabağ münaqişəsinin tarixi, 44 günlük zəfər yürüşünün əsas aspektləri, xalq-ordu birliyi və xalqımızın güclü vətənpərvərliyi, Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olmasının cari reallıqları əks etdirdiyini söyləyib. Kəlbəcər, Laçın və Ağdamın döyüşsüz alınmasını və digər uğurları mühüm tarixi hadisələr kimi şərh edən dövlətimizin başçısı bir zamanlar bu müqəddəs yerlərin erməni silahlı quldurlarının əlinə keçməsinə rəvac vermiş AXC–Müsavat hakimiyyətinin başında duranların ölkəyə yarıtmaz rəhbərlik etdiklərini bir daha diqqətə çatdırıb. Vurğulayıb ki, İkinci Qarabağ müharibəsində qələbə sayəsində, eyni zamanda, erməni mifologiyası tamamilə məhv olub. Uzun illər ərzində ermənilər “hərbi qələbə” ilə öyünürdülər. Onlar mif uydurmuşdular ki, guya orduları “yenilməz ordu”dur və bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi birdəfəlik dağıtdıq.

Çıxışında ermənilərin əzəli Azərbaycan torpaqlarında, o cümələdən də Kəlbəcərdə törətdikləri ekoloji terror aktlarını da nəzərə çarpdıran dövlətimizin başçısı beynəlxalq qurumların və dünya güclərinin buna göz yumduqlarını bildirib, onların indi də erməni işğalçılıq siyasətini dəstəklədiklərini bildirib. Daha sonra quruculuq işlərindən bəhs edən cənab İlham Əliyev Azərbaycanın bütün bu işlərin öhdəsindən layiqincə gəlmək iqtidarında olduğunu söyləyib: “Biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq”.

Ardınca Prezident İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub. Burada hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparması üçün hər cür şərait yaradılıb. Bu da hərbi qulluqçularımıza Vətənin keşiyində hər zaman ayıq-sayıq durmağa, onu düşməndən layiqincə müdafiə etməyə imkan verir.

Kəlbəcərə səfəri zamanı dövlətimizin başçısı “İstisu” sanatoriyasında da olub, Kəlbəcər–Laçın rayonunun Minkənd yolunun çəkilməsi işlərinə baxıb. Qeyd edək ki, “İstisu”ya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir. Çəkilişinə başlanan yol isə Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaq.

Kəlbəcər–Laçın səfəri qısa – bir günlük olsa da, önəmi çox böyükdür. Elə cənab İlham Əliyevin Kəlbəcər yolunda özü idarə etdiyi minik avtomobilindən ətrafa işarə ilə dediyi sözlər azad edilmiş Vətənin hər bir guşəsinə, hər bir daşına, qayasına sevginin təzahürü idi: “Mehriban xanım Kəlbəcərin gözəl mənzərəsini çəkir və yol boyunca Azərbaycanın gözəl təbiətini seyr edirik. Əminəm ki, bu, kadrlara baxanlar üçün də çox maraqlı olacaq. Artıq Kəlbəcərin meşələri də göründü. Bildiyimiz kimi, Kəlbəcərin çox füsunkar təbiəti var – dağlar, dərələr, meşələr.”

Prezidentin hələ asfalt çəkilməmiş yollarda maşını rahat sürməsi heç kəs üçün təəccüblü deyil. Zamanın hey sərt sınaqlara çəkdiyi Azərbaycanı layiqincə irəli aparan, ölkənin idarəetmə sükanını əlində möhkəm saxlayan, hər cür xarici təcavüz və təhdidlərdən qoruya bilən rəhbərin doğma təbiətin qoynunda, dağ yamaclarında özünü belə inamlı hiss etməsi son dərəcə təbiidir. Üstəlik də, yol boyunca təəssüratlarını dəyərli siyasi şərhlərlə ifadə etməsi, sözün əsl mənasında, yerinə düşürdü: ”Bura Zallar kəndinin ərazisidir... Qamışlı kəndi... Bizim evlər – azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri... Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar – bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq”.

Bəli, səfər zamanı Prezident İlham Əliyevin maşın sürməsi, ölkənin birinci xanımının isə videoçəkilişlər etməsi özəl bir sadəliyin, təvazökarlığın, xalqa sıx bağlılığın əsl nümunəsi idi. Rəhbərə xalq məhəbbətinin təməlində həm də məhz bu sadəlik, səmimilik dayanır. Elə sadə insanlarla görüşdə dövlət başçısına bal payı verən arıçı da dedi ki, dədə-baba yurdlarımıza qayıdacağımıza inanırdıq. Ona görə ki, biz Sizə inanırdıq, xalqımıza inanırdıq, şəhidlərimizə inanırdıq. Bizim təsərrüfatımızın builki məhsulunun 20 faizi şəhid ailələrinə yönəldiləcək.

Beləcə, Prezident İlham Əliyevin və ölkənin Birinci xanımı Mehriban Əliyevanın Kəlbəcər və Laçına səfəri də yaddaşlarda dərin iz buraxdı.

*Əli NƏCƏFXANLI,*
*“Xalq qəzeti”*